Географические науки

**İsmayılova Ülviyə Tapdıq**
*coğrafiya elmləri namizədi, dosent*
*Bakı Dövlət Universiteti*
**Исмайлова Улвия Тапдыг кызы**
*к.г.н., доцент кафедры «География Азербайджана»*
*Географического факультета*
*Бакинский Государственный Университет*

# ŞƏKİ – ZAGATALAİQTİSADİ RAYONUNDA REKREASİYA-TURİZM POTENSİALINDAN İSTİFADƏNİNƏHALİ MƏŞQULLUĞUPROBLEMLƏRİNİN HƏLLİNƏ TƏSİRİ İSTİQAMƏTLƏRİ

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ИСПОЛЬЗОВАНИЯ РЕКРЕАЦИОННО-ТУРИСТИЧЕСКОГО ПОТЕНЦИАЛА ШЕКИ-ЗАГАТАЛЬСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА ПРИ РЕШЕНИИ ПРОБЛЕМЫ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ

***Annotasiya:*** *Məqalədə Azərbaycan Respublikasının rekreasiya-turizm ehtiyatları ilə seçilən Böyük Qafqaz dağlarının cənub yamacında yerləşən, 6 şəhəri, 8 qəsəbəni, 336 kənd yaşayış məntəqəsini, 181 bələdiyyəni, respublika ərazisinin 10,4%-ni, əhalisinin 6,3%-ni, məhsul və xidmətlərinin 1,8% , sənaye məhsulu istehsalının 0,2%, kənd təsərrüfatı məhsulu istehsalının isə 9,4%-ni özündə birləşdirən Şəki-Zağatala iqtisadi rayonunda bu iqtisadi potensialdan istifadənin hazırkı vəziyyəti və onun əhalinin məşqulluq problemlərinə təsirinin əsas istiqamətləri hərtərəfli təhlil olunmuşdur.*

***Açar sözlər:*** *Turizm və istirahət resurs potensialı; bölgənin iqtisadi inkişaf əmsalı; əmək resursları.*

***Аннотация:*** *Туристско-рекреационный ресурсный потенциал стал неотъемлемой частью многих региональных экономических систем*

*Азербайджана в том числе Шеки-Загатальского экономико-географического района. Определен коэффициент хозяйственного развития региона и его корреляции с уровнем использования трудовых ресурсов. Следовательно, рациональное использование туристско-рекреационного ресурсного потенциала определяет важнейшие параметры развития Шеки-Загатальского экономика- географического района и решения проблемы занятости его трудоспособного населения.*

*В данной статье раскрыты наиболее существенные проблемы определения и расширенного использования туристско-рекреационно-ресурсного потенциала, его влияния на занятости населения и представлены рекомендации для их решения.*

***Ключевые слова:*** *туристско-рекреационный ресурсный потенциал; коэффициент хозяйственного развития региона; трудовые ресурсы.*

Məqalədə Azərbaycan Respublikasının rekreasiya-turizm ehtiyatları ilə seçilən Böyük Qafqaz dağlarının cənub yamacında yerləşən, 6 şəhəri, 8 qəsəbəni, 336 kənd yaşayış məntəqəsini, 181 bələdiyyəni, respublika ərazisinin 10,4%-ni, əhalisinin 6,3%-ni, məhsul və xidmətlərinin 1,8% , sənaye məhsulu istehsalının 0,2%, kənd təsərrüfatı məhsulu istehsalının isə 9,4%-ni özündə birləşdirən Şəki-Zağatala iqtisadi rayonunda bu iqtisadi potensialdan istifadənin hazırkı vəziyyəti və onun əhalinin məşqulluq problemlərinə təsirinin əsas istiqamətləri hərtərəfli təhlil olunmuşdur.

Azərbaycan Respublikası və onun regionlarında əhalinin həyat səviyyəsinin yüksəldilməsi və iqtisadi-fəal əhali qrupunun ictimai-istehsala cəlb edilməsi zəruri iqtisadi problemlərdən biri kimi qarşıda durur.Bu baxımdan ərazilərin mövcud təbi ehtiyat potensialından istifadə olunması iqtisadi əhəmiyyət kəsb edir və bunların içərisində rekreasiya-turizm ehtiyatları xüsusi yer tutur. Rekreasiya-turizm ehtiyatlarının ictimai-istehsala cəlb edilməsi və onlardan səmərəli istifadə olunması bir tərəfdən ərazidə iqtisadiyyatın inkişafına, digər tərəfdən isə sosial problemlərin xüsusən məşqulluq probleminin həllinə böyük imkanlar acır. İqtisadi rayonların mövcud mineral, iqlim, torpaq, meşə və su ehtiyatları regional iqtisadiyyatın

inkişafına təsir göstərə biləcək zəruri resurs sferası sahələri olmaqla, həmcinin əhalinin madi-rifahı istiqamətində istifadə olunmalıdır (6). Rekreasiya-turizm sərvətlərinə tələbatın formalaşdırılması, ilk növbədə cəmiyyətin formalaşan tələbatından, işci qüvvəsinin təkrar istehsalından və əhalinin işlək qabiliyyət elementlərinin bərpa olunmasından irəli gələn obyektiv qanunauyğun prosesdir (5).

Rekreasiya – turizm ehtiyatlarına görə Şəki-Zaqatala iqtisadi rayonu respublika regionları icərisində iqtisadi inkişafa təsir baxımından yüksək potensiallı əmsala malik olan ərazilərdən biri kimi qiymətləndirilir. Balakən, Zaqatala, Şəki, Qax, Opuz, Qəbələ inzibati rayonlarını əhatə etməklə 8,96 min $km^2$ əraziyə, 581,7 min nəfər (2015-ci il)əhaliyə malik olan iqtisadi rayon, Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşir. Əhalinin 27,6 faizi şəhərlərdə,72,4% kənd məntəqələrində yaşayır. Rayonda əhalinin sıxlığı aşağı olmaqla hər $km^2$ 65 nəfər təşkil edir.İqtisadi rayonun relyefi yüksək dağlıq və dağətəyi hissələrə bölünməklə, təsərrüfatın inkişafı baxımından məhdud torpaq ehtiyatlarına, rekreasiya baxımından zəngin estetik dağlıq təbi landşaftlara, mineral və termal bulaqlara, turizmin inkişafı baxımından isə çoxsaylı tarixi-etnoqrafik abidələrə malikdir.

Əhəmiyyətli rekreasiya-turizm potensialına malik olan ərazinin aşağı düzənlik hissəsində quru qış ilə müşayət olunan mülayim isti yarım səhra və çöl iqlimi, dağətəyi hissəsində yağıntıları bərabər paylanan və quru qış ilə müşayət olan mülayim isti iqlim, yuxaı dağlığ hissəsi üçün isə rütubətli qışla soyuq iqlim xarakterikdi. Fəal temperaturlann cəmi 3000-4000° arasında dəyişir və ərazi ümumilikdə mülayim iqlim şəraitinə malikdir. Yüksəklik fərqinin böyük olması təbii şəraitin müxtəlifliyinə səbəb olmuşdur.

Rayon ərazisi rekreasiya-turizm potensialına malik olan mineral, termal sularla və çoxsaylı tarixi-etnoqrafik abidələrlə zəngindir. Şəki-Zaqatala iqtisadi rayonu ərazisinin 28 faizini meşə massivləri təşkil edir ki, onların əsas hissəsi Balakən və Zaqatala rayonlarının payına düşür.İqtisadi rayon bol su ehtiyatlarına malikdir. Şəki-Zaqatala iqtisadi rayonu ərazisində 9 yeraltı şirinvə 150-dən çox mineral-termal tipli su yataqları aşkar edilmişdir[3]. Müxtəlif debitə malik olan

Çimçimax, Moksu, Bum, Xalxa, Buğusşor, Suskən, Əlibəyli və Ağbulaq mineral və termal suları əsəb,dəri, ürək-damar və əzələ xəstəliklərinin müalicəsində mühüm əhəmiyyətə malikdir. Hazırda Qax rayonunda 4, Zaqatala rayonunda 22, Qəbələ rayonunda Bum çayı vadisində 3, Oğuz rayonunda 3, Şəki rayonunda bir kükürdlü, maqneziumlu, karbonatlı, natriumlu, kalsiumlu, hidrokarbonatlı, sulfatlı və xloridli kimyəvi elementlərlə zəngin olan, debitləri isə sutkada 144-161 min $m^3$ arasında dəyişən mineral və termal bulaqlar qeydə alınmışdır.Termal bulaqlarda suyun temperaturu $+30^0C$ ilə $+50^0C$ arasında dəyişir ki, bu da onlardan həm termal enerji mənbəyi kimi, həm də müalicə-kurort tipli müəssisələrin yaradılması məqsədləri ilə istifadə olunmalarına imkan verir (10).

Mineral və termal su ehtiyatları ilə yanaşı iqtisadi rayon ərazisində 400-dən çox tarixi-etnoqrafik abidələrə də rast gəlinir. Şəki şəhərində XVIII əsrə aid Şəki xanlarının evi, Qala divarları,Gileyli məscidinin minarəsi,XVIII-XIX əsrlərə aid Aşağı karvansaray,Yuxarı karvansaray, XIX əsrdən qalan Ağvanlar hamamı vardır. Rayonda VI əsrə aid "Gavur" qalası, orta əsrlərə aid Qudula qala yeri, Aydınbulaqda Ağcaqala qülləsi, Kiş kəndi yaxınlığında orta əsrlərə aid Kiş məbədi, XV əsrdən qalan "Gələrsən görərsən", təkcəZaqatala rayonunun ərazisində isə 108-ə yaxın abidə qeydə alınmışdır.

Bunlardan ən qədimi Pəriqala, Armatay qalası, Cingözqala, Şeytan qalası, Zaqatala qalası və başqalarıdır. Rayonun kənd yerlərində VI- VIII əsrlərdən qalmış 10-dan çoxAlban abidələri mövcuddur.

Rayonun Mamrux (Mamrux kilsəsi), Mazıx, Muxax, Qəbizdərə, Yuxarı-Tala, Yuxarı Çardaxlar kəndlərindəVI-VIII əsrlərdən qalmış çoxlu Alban abidələri,Gözparaq və Halal kəndlərində XVIII əsrə aid məscidlər, Keloba kəndində XV əsrə aid iki qüllə, Mazıx kəndində XII əsrə aid qüllə, Yuxarı Çardaxlar kəndində V əsrə aid Pəriqala, Car kəndində XIV əsrə aid Çingizqala, Paşan kəndində Alban qülləsi (XIII əsr) və Axaxdərə kəndindəki Alban qülləsi(XII əsr),Əliabad və Mosul kəndlərində XIX əsrdə tikilmiş məscidlər hazırkı vaxta qədər qorunub mühafizə olunmuşdur.

Rayon ərazisində, ekoturizmin inkişafı üçün əvəzsiz, 1839-cu ildə təşkil olunmuş (ərazisi 23800 ha.) Zaqatala Dövlət Qoruğu, İlisu Dövlət Qoruğu, Zaqatala şəlaləsi, Xalaxi gölü, Malarasa aşırımı ən gözəl təbiət abidələrindən sayılır.

Qəbələ rayonu ərazisində hazırda 90-dan çox tarixi, etnoqrafik, maddi-mədəniyyət abidəsi qeydə alınaraq mühafizə olunur.Qədim Qəbələ şəhərinin qalıqlarını və onun ətrafında aşkar edilmiş bir çox arxeoloji tapıntıları mühafizə etmək məqsədi ilə 1985-ci ildə burada 480 hektar sahəni əhatə edən Qəbələ tarix – mədəniyyət qoruğu yaradılmışdır.Böyük Əmili kəndində eramızdan əvvəl I minilliyə aid olan daş kurqan, Soltannuxa kəndinin cənubunda, Kilsə dağında IV əsrə aid Alban məbədi, Nic qəsəbəsində antik dövrə aid Nekropol, Yengicə kəndinin cənubunda IV-XIV əsrlərə aid Qızlar qalası, X-XII əsrlərə aid Surxay qalası, Həzrə kəndində XIV-XV əsrlərə aid türbələr kompleksi, Dızaxlı kəndinin şimali - qərbində yerləşən, VII əsrə aid Komurad məqbərəsi, Qəbələ şəhərindəki Büdxana qalıqları, XVIII əsrə aid 8 güşəli Məscid, XIX-XX əsrlərin başlanğıcında inşa edilmiş Cümə məscidi, rayonun „tarixi inciləri" olub, bu yerlərə gələnlərin diqqətini cəlb etməyə bilmir. Oğuz Rayonunda 39 arxeoloji və memarlıq abidəsi dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrindən 32-si siyahıya alınmışdır.Rayondakı memarlıq abidələrindən alban məbədlərinin, Muxas qülləsinin (XIV əsr),Surxayxan qalasının qalıqları (XVIII əsr) bu günə kimi qalmışdır. Xaçmaz kəndi yaxınlığındakı Sarısu çayının üstündəki Daşüz körpüsü (XIX əsr), Sincan kəndindəki məscid (XVIII əsr), Kərimli kəndindəki Sməqbərə (XV əsr), Oğuz şəhəri ərazisində qədim sınaqoqlu (1849-cu il), hazırda yerli tarix-diyarşünaslıq muzeyinin yerləşdiyi alban məbədi rayonun qədim tarixi abidələrindəndir.Qax rayonunda 68 tarix və mədəniyyət abidəsi qeydiyyata götürülüb.İqtisadi rayonun digər ərazilərində də bu tipli çoxsaylı tarixi abidələrə rast gəlmək mümkündür.Regionun qeyd olunan təbii rekreasiya və turizm potensialınını aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- təbi rekreasiya ehtiyatları – daq sistemləri, dağlıq massivlər, meşə massivləri, dağ mağaraları, heyvanlar və bitkilər aləmi, su ehtiyatları, çaylar, göllər,

mineral və termal bulaqlar, buzlaqlar, müxtəlif fiziki-kimyəvi tərkibli xüsusiyyətlərə malik olan müalicə suları;

- təbii şərait ehtiyatları – estetik müxtəlifliyə malik olan landşaftlar, dəniz səviyyəsindən müxtəlif hündürlüklərdə yerləşmiş təbi qurşağları, balnoloji iqlim ehtiyatları, təbiət qoruqları, günəşli günlərin illik miqdarı, qar örtüyü, qar örtüyünün yerdə qalma müddəti və s.;
- turizm ehtiyatları- tarixi, etnoqrafik abidələr, muzeylər, qalalar, türbələr, məscidlər və s.

Rekreasiya-turiz potensialından səmərəli və tam istifadə olunması, regionun daxil olan pul vəsaiti axınından aslı olaraq xarici və daxili istehlakçılar üçün rəqabət qabiliyyətini artırmaqla, sosial problemlərin, xüsusən məşqulluq probleminin həllinə və insan kapitalının səmərəli inkişafına əlverişli şəraiti təmin edir(9).Lakin bunun üçün xidmət sferası potensialının inkişaf etdirilməsi, mineral suların qablaşdırılmasının və bu mənbələr üzərində sanatoriya-müalicə müəssisələrinin yaradılmasının həyata keçirilməsi də zəruri məsələlərdən biri sayılır. Qax rayonunun Suskən kəndi yaxınlığında yerləşən hidrokarbonatlı-sulfatlı bulaqdan "Qax" suyu istehsal olunur.Burada həmçinin sanatoriya-müalicə müəssisəsi də fəaliyyət göstərir. Lakin bütün bunlar istisinalıq təşkil etməklə, iqtisadirayonun mineral su potensialından istifadənin çox cüzi hissəsini təşkil edir(2).

Bu məqsədlə ilk növbədə regionun ərazi inkişaf indeksinin hazırkı səviyyəsinin müəyyənləşdirilməsinin həyata keçirilməsi və ehtiyat mənbələrininaşkar olunması zəruri məsələlərdən biri kimi qiymətləndirilmişdir[7].İlk dəfə tərəfimizdən bu məqsədlə D.L.Lopatnikovun ərazi inkişaf indeksindən (index of regional economic development)(8)istifadə olunmaqla Şəki-Zağatala iqtisadi rayonu və ora daxil olan inzibati vahidlər üçün bu indeksin göstəriciləri hesablanmış və tam şəkildətəhlil olunmuşdur (cədvəl 1).

İndeksin hesablanması üçün D.L.Lopatnikovun aşağıdakı riyazi aslılığından istifadə edilmişdir :

$$I = 0.1\sqrt{\frac{v^2}{NS}}$$

Burada : **V** – regionun ümumi daxili məhsulunun dəyəri mln. man;**N-** regionun əhalisinin sayı min nəfər;**S-** regionun ümümi sahəsi min km$^2$;

*Cədvəl 1*

**Şəki-Zağatala iqtisadi rayonuna daxil olan inzibati rayonların ərazi inkişaf indeksi**

| *Rayonlar* | *Sahəsi ( min km$^2$)* | *Əhalinin sayı ( min. nəfər)* | *Ümumi daxili məhsulun dəyəri (mln.man)* | *Ərazi İnkişaf İndeksi* |
|---|---|---|---|---|
| *Balakən* | *0,94* | *94,9* | *112,2* | *1,19* |
| *Zağatala* | *1,35* | *124,7* | *87,9* | *0,68* |
| *Qax* | *1,49* | *55,2* | *263,0* | *2,90* |
| *Şəki* | *2,43* | *181,0* | *95,9* | *0,45* |
| *Oğuz* | *1,08* | *42,6* | *178,3* | *2,63* |
| *Qəbələ* | *1,55* | *101,5* | *344,6* | *2,75* |
| *Şəki-Zağatala İqtisadi Rayonu* | *8,84* | *599,9* | *1081,9* | *1,49* |

Materiallarının(cədvəl 1) təhlili göstərir ki, mövcud rekreasiya-turizm potensialına malik olmasına baxmayaraq iqtisadi rayonun ərazi inkişaf indeksi 1,49bərabərdir. Bu müvafiq olaraq respublikanın ümumi orta regional göstəricilərindən (6,46) geri qalır.Ərazi inkişaf göstəricisi iqtisadi rayona daxil olan Qax, Oğuz və Qəbələ rayonlarında nisbətən yüksəkdir. Nəticə ehtibarı ilə ərazi inkişaf indeksinin təhlil göstəriciləri ərazinin rekreasiya-turizm potensialından da zəif istifadə olunduğunu özündə ifadə edir, çünki zəruri xidmət infrastrukturunun inkişaf etməməsi, iqtisadi rayonun rekreasiya-turizm potensialından istifadə olunmasına ləngedici təsir göstərən əsas faktorlardan biri sayılır. Son dövrlərdə Qax, Qəbələ və Oğuz rayonlarında infrastruktur xidmət sferasının inkişaf etdirilməsinin nəticəsi olaraq bu rayonlarda ərazi inkişaf indeksinin müvafiq olaraq 2,90, 2,63, 2,75 hədləri arasında dəyişməsinə öz təsirini göstərmiş və bu göstəricilər dinamik artma tendensiyasına malikdir. Həmçinin qeyd etmək lazımdır ki, iqtisadi inkişaf indeksi ilə iqtisadi rayonda əmək qabiliyyətli əhalinin içtimai istehsala cəlb olunması və rekreasiya-turizm potensialından istifadə arasında korrelyasiya əlaqələri

formalaşır. Aparılmış təhlillər nəticəsində müəyyən edilmişdir ki, bu proseslər arasındakı korrelyasiya əlaqələri 0,8 ilə 1,0 arasında dəyişir ki, bu da intensivlik dərəcəsinə görə ən yüksək əlaqə göstəricisi hesab olunur. Belə ki, qeyd olunuan Qax, Qəbələ və Oğuz rayonlarında iqtisadi inkişaf göstəricisinin yüksək olması iqtisadi fəal əhalinin məşqulluğunun qismən də olsa artmasına öz təsirini göstərmiş və bu əhali qrupunun demək olar ki, müvafiq olaraq 45,9% - 50,4% -nin içtimai istehsala cəlb olunması ilə nəticələnmişdir.Digər rayonlarda isə bu göstərici müvafiq olaraq 25,5% - 29,5% arasında dəyişir.

İqtisadi rayonun dağlıq relyefi, iqlimi, rekreasiya-turizm potensialı onun iqtisadi-inkişafına və əhalinin məşqulluq səviyyəsinə təsir edə biləcək bir sıra xarakterik xüsusiyyətlərin formalaşmasına şəbəb olmuşdur:

- dağlıq region özünün düzənlik ərazilərə keçid sərhəddinə qədər nisbətən zəif məskunlaşması ilə seçilir ki, bu da relyefin kəskin parçalanma dərəcəsi, yaşayış səviyyəsinə təsir edən iqlim sərtliyi və əlverişli səth örtüyünün qıtlığı ilə izah olunur;
- dağlıq regionlarda hər hansı əmək fəaliyyəti növü daha yüksək maya dəyəri əsasında formalaşır və bəzi hallarda bu iqtisadi faktor hər hansı fəaliyyət növü, hətta kənd təsərrüfatı üçün də ləngedici amilə çevrilir;
- dağlıq regionlarda insan fəaliyyəti ona bitişik düzənlik və dağətəyi ərazilər üçün ekoloji təsir riskini artırır, çünki daq sistemləri özünün hündürlük potensialından aslı olaraq mühit formalaşdırıcı funksiyalaraına malikdir və bu bəzi hallarda əks təsirlərə gətirib çıxarır.

Rayonda ən böyük işgüzar fəalliq kənd təsərrüfatı, xüsusilə heyvandarlıq sahəsi ilə əlaqədardır.iqtisadi rayonun turizm, efir yağlı bitkilərin yetişdirilməsi və emalı, ənənəvi sənətkarlıq sahələrinin, sitrus bitkiləri (xurma), norveç təcrübəsindən istifadə olunmaqla nohur balıqçılıq təsərrüfatının bərpası kimi potensial imkanlara malik olan sahələrin zəif inkişafı özünü aydın şəkildə büruze verir.

2004-2008-ci, həmçinin 2009-2013-cü illəri əhatə edən "Regionların sosial-iqtisadi inkişafı üzrə" iki Dövlət Proqramında Şəki-Zaqatala iqtisadi rayonunda sosial-iqtisadi inkişafla bağlı nəzərdə tutulmuş kompleks tədbirlərin uğurla həyata

keçirilməsi nəticəsində təxminən 55 min yeni iş yeri, həmçinin 249yeni müəssisə yaradılmışdır(1). Lakin bu iş yerlərinin çoxu kənd təsərrüfatının kiçik biznes sahəsinin payına düşür. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, iqtisadi rayonda 12158 kiçik biznes subyekti fəaliyyət göstərir ki, bu təqribən Azərbaycanda olan kiçik biznes subyektlərinin ümumi sayının 6% bərabərdir. Onların əksəriyyəti üç inzibati rayonda: Şəkidə(2837), Zaqatalada (2734) və Qəbələdə (2226) cəmlənmişlər(3).

Bu sahələr içərsində əhali məşqulluğuna təsir baxımından turizmin böyük inkişaf potensialı mövcuddur. Ona görə də turizm və müalicə - istirahət zonalarında müvafiq infrastrukturların yaradılması üzrə, həmçinin turizm fəaliyyətinin dəstəklənməsi məqsədi ilə yerli, o cümlədən xarici sərmayələrin cəlb edilməsi və təşviqi üzrə işlərin aparılması hazırkı şəraitdə zəruri sayılır. Statistik göstəricilərin təhlili göstərir ki, iqtisadi rayonda hazırda turizmin inkişafı üçün zəruri sayılan infrastruktur zəif inkişaf etmiş və bu da sahənin inkişaf dinamikasına, eyni zamanda əhalinin məşqulluğuna əsas təsir göstərən amillərdən sayılır. Hazırda iqtisadi rayonda əsas turizm infrastruktur xidməti obyekti sayılan mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 51 çatır və bu 2005-ci illə müqayisədə, yəni 10 illik müddət ərzində cəmi 24 ədəd çoxdur və ya 1,9 dəfə artım tendensiyasna malikdir.Bu müddət ərzində müəssisələrdəki xidməti nömrələrin sayı isə cəmi 507 vahid artıma malik olmuşdur ki, bu da iqtisadi rayonda turizm infrastrukturunun çox zəif artım dinamikasına malik olduğunu göstərir (cədvəl 2).

Turizm obyektlərinin çoxunda xidmətlərin beynəlxalq standartlara uyğun təşkil olunmaması, kadrların peşə hazırlığının zəif olması, praktiki əmək vərdişlərinin formalaşdırılmaması, dünyanın tanınmış turizm şirkətləri ilə təcrübə mübadiləsinin aparılmaması, xidmətlərin müasir tələblərə uyğun təşkil olunma mexanizminin zəif olması, eyni zamanda kənd turizminin, ekoturizmin formalaşdırılmasının sürətləndirilməməsi bu sahədə mövcud problemlərin yaranmasının əsas səbəbləri və onların aradan qaldırılmasının başlıca istiqamətləri hesab olunur. Rekreasiya-turiz potensialından istifadə imkanlarının mümkünlüyü və yeni iş yerlərinin 1,5-2,0 dəfəyə qədər artırılması məqsədi ilə, rayonlar üzrə

rekreasiya-turizm infrastrukturunun gücünün yaxın perspektivdə müvafiq olaraq 2,5-3,0 dəfəyə qədər artırılması idarəetmə orqanları qarşısında duran başlıca prioritet istiqamət kimi qəbul olunur( cədvəl 2 ).

*Cədvəl 2*

**Şəki-Zağatala İqtisadi Rayonunda Turizm infrastrukturununinkişaf dinamikası və onun proqnozlaşdırılan həcmi (2005- 2020-ci illər)[1]**

| Əsas göstəricilər | 2005 | 2010 | 2014 | 2020 |
|---|---|---|---|---|
| -Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, ədəd ..... | 27 | 50 | 51 | **153** |
| -Nömrələrin sayı , ədəd.... | 508 | 970 | 1015 | **3045** |
| -Birdəfəlik tutumu, yer...... | 1044 | 2180 | 2469 | **7407** |
| -Yerləşdirilmiş şəxslərin sayı, nəfər. | 8670 | 41780 | 32077 | **96231** |
| -Gecələmələrin sayı, adam/gecə.... | 21771 | 62874 | 60136 | **180408** |
| -Açılmış yeni iş yerlərinin sayı | 7876 | 3943 | 6894 | **13788** |

***Qeyd: Cədvəl Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib olunmuş və baza dinamikası əsasında müəllif tərəfindən proqnozlaşdırılma həyata keçirilmişdir***

Aparılmış təhlillər göstərir ki, iqtisadi inkişafda və rekreasiya-turizm potensialından istifadə olunması istiqamətində son illərdə bəzi müsbət istiqamətli artım dinamikasına nail olunsa da, hələ də iqtisadi rayonun təbii-iqtisadi resurs potensialı tam və səmərəli şəkildə dövriyyəyə cəlb olunmamışdır.Bu baxımdan rayonda müvafiq iqtisadi tədbirlərin davam etdirilməsi, xüsusən rekreasiya-turizm infrastrukturunun təkmilləşdirilməsi və inkişafı, emal müəssisələrinin sayının artırılması, rayonun coğrafi şəraiti və ehtiyatlarına uyğun yeni müalicə-sanatoriya tipli, həmçinin turizm müəssisələrinin yaradılması daha səmərəli məşqulluq göstəricilərinin əldə olunmasına imkan yaradardı. Bunun üçün isə iqtisadi rayon üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi, sahibkarlıq fəaliyyətinin bu istiqamətlər üzrə stimullaşdırılması məqsədəuyğun hesab olunur.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları, Bakı, 2015. 139 s.
2. Babayev M. R. "Dayanıqlı ekoinkişaf modeli: su təchizatı və tullantı sularının idarə olunmasəının əsas istiqamətləri". Su Problemləri Elm və Texnologiyalar, Beynəlxalq Resenziyalı Elmi Jurnal, № 2, 2015, 135 s.
3. Əzəmmədov S. "Şəki-Zaqatala regionunun müasir sosial-iqtisadi inkişafının əsas istiqamətləri" Təfəkkür Yurnalı, № 1(7), 2015, 105 s.
4. Əhmədov N. "Şəki–Zaqatala regionunda təbii sərvətlərdən səmərəli istifadənin bəzi məsələləri". Regional idarəetmə: inovativ yanaşmalar və perspektiv imkanlar, respublika elmi-praktik konfransın materialları, Bakı, "Elm və Təhsil", 2015, 311 s.
5. Həsənov T. G., Babayev M. R. "Dayanıqlı ekoinkişaf modeli: Azərbaycanın milli iqtisadiyyatının həlledici inkişaf yolu". Regional idarəetmə: inovativ yanaşmalar və perspektiv imkanlar, respublika elmi-praktik konfransın materialları, Bakı, "Elm və Təhsil", 2015, 311 s.
6. Nadirov A.A. "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri". Bakı,"Elm",2011, 451 s.
7. Екеева Э.В. «Методы Географических Исследований»: учебное пособие, Горно-Алтайск, РИО ГАГУ, 2010, 48 с.
8. Лопатников Д. Л., Эстеров А. И. «Возможности использования индекса хозяйственного развития территории в сравнительном экономико-географическом анализе». Известия Российской Академии Наук, Сер. географическая – М, : Наука, 1997, № 2, 230 с.
9. Мищенко М.М. «Экономика регионов». Москва, ИК Аналитика, 2002, 160 с.
10. Салаева Л.А. «Проблемы и пути оптимизации рационального использования минеральных и термальных вод Азербайджана». Azərbaycanda regional inkişafın sosial-iqtisadi və ekocoğrafi

problemləri.Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri, IX cild, Bakı, 2004, 528 s.